DOI: https://www.doi.org/10.36719/2663-4619/65/346-349

**Elvin İsmayıl oğlu Cəfərov**
Bakı Avrasiya Universiteti
magistrant
elvin.cfrov.97@mail.ru

# AZƏRBAYCANIN TURİZM POTENSİALI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *turizm, turizm potensialı, turizmin inkişaf istiqamətləri*

## Tourism potential and development directions of Azerbaijan

**Summary**

Tourism accelerates the development of road and hotel infrastructure, has a strong impact on the protection of folk art and national cultures in the regions and villages.

Today, we can proudly say that our state is carrying out a number of important activities to accelerate the development of tourism, to bring the country's domestic tourism potential to the world market, as well as to attract foreign tourists to our beautiful corners. Purposeful state policy implemented in this direction in order to accelerate the development of tourism in our country, the steps taken cause a greater influx of tourists to Azerbaijan from around the world than in previous years.
***Key words:*** *tourism, tourism potential, tourism development directions*

## Giriş

Azərbaycanın təbii sərvətləri, rəngarəng iqlimi, zəngin tarixi-mədəni irsi turizmin inkişafına və ölkəyə daha çox turistin cəlb edilməsinə imkan yaradır. Turizm sahəsi həm regionların inkişafı, həm də ölkənin iqtisadi potensialının möhkəmlənməsi, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir.

Turizmlə bağlı ölkənin inkişaf strategiyası ümumilikdə iqtisadiyyatının gücləndirilməsinə böyük töhfə verir. Son illər turizm sahəsində, ilbəil ölkəyə gələn turistlərin sayında dinamika müşahidə edilir. 2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 191 ölkəsindən 2.4 milyon xarici qonaq gəlib ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 9.6% çoxdur. Bu, göstərir ki, turizm sahəsində stabil və dinamik inkişaf var.

## Təhlillər

Azərbaycanın turizm potensialı ilə tanınan və hər il yüzlərlə, minlərlə insanın istirahətə gəldiyi regionlarından biri Xaçmazdır. Uca dağları, Xəzər dənizi sahili boyunca uzanan geniş meşələri, zəngin təbiəti, özünəməxsus mətbəxi baxımından bu rayon turistlər üçün çox cəlbedicidir.

Rayon əhalisinin başlıca gəlir mənbəyi də əkinçilik və turizmdir. Nabran-Yalama-Xudat yolu boyu ilin hər fəsillərində təzə meyvə-tərəvəzə rast gəlmək mümkündür. Rayonda ev şəraitində hazırlanmış müalicəvi əhəmiyyətli meyvə şirələri və içkiləri məşhurdur. Alman səyyahı Adam Oleari 1636-1638-ci illərdə Azərbaycana səfərindən bəhs edən zaman Xaçmazda içdiyi müxtəlif meyvə şirələrini xüsusilə qeyd etmişdi (2., s.69).

Xaçmaz rayonunun coğrafi mövqeyi onu Azərbaycanın ən məşhur turizm məkanlarından birinə çevirib. Burada daha çox çimərlik turizmi inkişaf edib. Rayon mərkəzindən çox uzaq olmayan Nabranın adını eşidəndə adamın gözləri önünə birinci olaraq dəniz ilə çimərliklər gəlir. 1960-cı illərdən bəri müxtəlif dövlət müəssisələrinin həmkarlar ittifaqları burada işçiləri üçün istirahət evləri tikməyə başlamışdılar. Hal-hazırda isə Nabran kəndi gözəl təbiəti, qonaqpərvərliyi ilə bərabər, yüksək standartlara cavab verən turizm məkanları ilə tanınır.

Nabrandan 6 km aralıda Tel kəndi yerləşir. Bu kəndin ərazisi ov həvəskarları üçün əla tapıntıdır. Kənddən bir qədər kənarda palçıq vulkanı var. Sakinlərin dediyinə görə, vulkanın palçığı müxtəlif xəstəliklərinin dərmanıdır.

Xaçmaz rayonunun Mədəniyyət və turizm şöbəsinin müdiri Nazim Ağayevin dediyinə görə, rayon ərazisində eyni zamanda 1600-dək insanı qəbul etməyə imkan yaradan 40 turist yerləşdirmə obyekti, 1 üçulduzlu, 3 dördulduzlu hotel fəaliyyətdədir. 2019-cu ildə rayona 19 minədək turist gəlib. Onlar əsasən istirahət-əyləncə və müalicə turizminə üstünlük verənlərdir (4).

Qəbələ rayonu Azərbaycanın şimal-qərbində, Şəki-Zaqatala iqtisadi zonasında, Dağıstan və Gürcüstan ilə sərhəddə yerləşir. Rayon qoz, fındıq və şabalıd bağları ilə məşhurdur. Dağ yamaclarında, dəniz səviyyəsindən 1000 metrdən yüksəklikdə yerləşən tanınmış şabalıd meşələrindəki ağacların hər birinin orta

yaşı 500 ildən artıqdır. Bu ağaclardan bəziləri dövlət tərəfindən qorunan təbii abidələr siyahısına daxil edilib. Respublikanın ən uca zirvəsinə - Bazardüzü dağına (dəniz səviyyəsindən 4466 m yüksəklikdə) gedən alpinist marşrutlarından biri bu rayonun ərazisindən keçir.

Rayonun ərazisində çoxlu qədim tarix, mədəniyyət və memarlıq abidələri var. Əmirli kəndindəki Alban məbədi (IV əsr), Nic kəndindəki Hacı Qərib məscidi və Çotari alban kilsəsi, Həzrə kəndindəki Şeyx Bədrəddin və Şeyx Mənsur türbələri (XV əsr), Şəfili kəndindəki məqbərə (XVII əsr), Həmzəlli Şıxbaba piri (XVI əsr) və digər abidələr Qəbələ rayonunda mədəni turizmin inkişafı üçün mühüm zəmin yaradır (7., s.37).

Rayonda turistlərin yerləşdirilməsi üçün beynəlxalq standartlara cavab verən turizm infrastrukturu vardır. Son zamanlarda rayonda yeni turizm kompleksləri, ən yüksək standartlara cavab verən istirahət mərkəzləri inşa edilir. Bu isə həm əcnəbi, həm də yerli turistlərin Qəbələyə marağını daha da artırır. İstirahətini Qəbələdə keçirmək və rayonla daha yaxından tanış olmaq istəyən insanların sayı hər il artır. Turistlər Qəbələnin ekzotik təbiəti ilə təmasda olmaq, yerli mətbəxin ləziz nümunələrindən dadmaq, müxtəlif mədəniyyət nümunələri ilə tanış olmaq məqsədilə bu gözəl məkana gəlirlər.

Naftalan. Xam nefti ilə tanınır və bölgədəki sağlamlıq turizminin aparıcı aktyorlarından biridir. Müəssisəyə gələnlər yağla yuyulur və bəzi xəstəlikləri yaxşılaşdırırlar. Müəssisədə spa kimi digər üsullarla müalicə ala bilərsiniz (1., s.24).

Qobustan. İngiltərədəki Stonehenge-in Azərbaycandakı versiyası olduğunu deyə bilərik. Əldə edilən tapıntılar tarixə qədərki dövr haqqında çox ətraflı məlumat verir. Mağara və qayalara, məzar daşlarına və yaşayış yerlərindəki xarabalıqlara çəkilən rəsmlər arxeoloji suallara cavab verə bilər (1., s.28).

Masallı rayonu relyefinə və təbiətinə görə Azərbaycanın səfalı və füsunkar guşələrindən biridir. Rayonun bir tərəfi qədim Talış dağları və meşələri ilə, bir tərəfi Xəzər dənizi ilə əhatə olunub. Bütün bunlar bölgədə turizmin inkişafı üçün gözəl zəmin yaradır. Hələ yüz illər öncə ətraf bölgələrdən və uzaq diyarlardan gələn insanlar Masallıda yer altından çıxan qaynar sulardan müalicə məqsədilə istifadə ediblər.

Turizm üçün əlverişli təbii şəraitə malik rayonda beynəlxalq standartlara cavab verən istirahət mərkəzləri, turist yerləşdirmə obyektləri var. Masallı rayon Mədəniyyət və turizm şöbəsinin müdiri Lətifə Mövsümova rayon ərazisində 1400 yerləşdirmə yeri olan 26 turist obyektinin fəaliyyət göstərdiyini bildirdi.

2019-cu ildə rayona 10 minədək turist gəlib ki, onların da 4-5 faizini əcnəbilər təşkil edib.

Şirvan Milli Parkı. 2003-cü ildə rəsmi olaraq qorunan Şirvan Milli Parkı, Xəzər dənizinin yaxınlığında yerləşir. Bakının cənubunda 54.000 hektar ərazini əhatə edir. Milli parkda yarı səhra mənzərələrinə rast gəlmək olar. Ceyran, kirpi, qu quşu və flaminqo kimi heyvanları da yaxından görə bilərsiniz. Palçıq vulkanları parkda da yaygındır. Ən məşhuru Bandovan dağıdır. Avantüristlər üçün parkın şimal hissəsində düşərgə sahələri yaradılıb (3.,s.16).

Azərbaycanın turizm üçün əlverişli olan dilbər guşələrindən biri də İsmayıllı rayonudur. Böyük Qafqazın cənub ətəklərində yerləşən İsmayıllı ərazisində tariximizin qədim dövrlərinin izləri qalmaqdadır. Rayonda müxtəlif sənətkarlıq növləri yüksək inkişaf edib ki, bu da İsmayıllını turistlər üçün maraq obyektinə çevirib.

Rayonun dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən Lahıc kəndi sənətkarları ilə məşhurdur. XIX əsrin ortalarında Lahıcda 200-dək misgərlik emalatxanası fəaliyyət göstərib. Vaxtilə Lahıc ustalarının yüksək sənətkarlıqla düzəltdikləri odlu və soyuq silahlar əl-əl gəzib. XIX əsrin birinci yarısında Rusiyanın İjevsk silah zavodunda Lahıc ustalarının təcrübəsindən istifadə olunmuşdu. O dövrdə Lahıcda 100-dən artıq sənət növü - misgərlik, dabbaqlıq, çəkməçilik, papaqçılıq, sərraclıq, dəmirçilik, həkkaklıq, qalayçılıq, dulusçuluq, dərzilik və sair peşələr inkişaf tapmışdı (6., s.106).

1980-ci ildən muzey-qoruğa çevrilən Lahıcda həmin illərdən yadigar qalan məhəllə məscidləri, Girdiman qalası qorunan tarixi abidələr siyahısındadır. Saf havası, suları can dərmanı olan dağ kəndi Lahıcda turizm mərkəzinin yaradılması zəruridir (3., s.98). Hər il Lahıca 8 minədək qonaq gəlir ki, onların da 80-90%-i əcnəbilərdir. İrandan, Rusiyadan, Yaponiyadan, İtaliyadan və İspaniyadan respublikamıza təşrif buyuran qonaqar Lahıcda dincəlmək istəyirlər.

Şəki. Bakının qərbində yerləşən, Qafqazın ən qədim yaşayış məskənlərindən biridir və 2500 il əvvələ aid olduğu deyilir. Şəki İpək Yolu üzərində olduğundan əvvəllər ipək və tekstil məhsulları ilə məşhur idi. Bu ənənənin davamını bu gün görə bilərsiniz. Süslü tikmə, sənətkarlıq məhsulları turistlərin diqqətini çəkir. Şəki şəhərini təkcə tekstil deyil, həm də memarlıq tikililəri vacib edir. Səki Xan Sarayı, 18-ci əsrə aid qalalar, məscidlər və hamamlar görülməyə dəyər. (2).

Daşkəsən rayonu Kiçik Qafqazın şimal-şərqində yerləşdiyi və səthi şimala doğru alçalan dağlarla əhatə olunduğu üçün olduqca mənzərəli, qışda qismən azalan, yaz-yay, payız mövsümlərində aşıb-daşan dağ çayları ilə zəngindir.

Rayona xüsusi gözəllik verən yol boyunca uzanan qalın meşələrdə əsasən fıstıq, vələs, palıd, cökə, söyüd, göyrüş, qozqara (qaraağac), töləkə və görməşov ağacları bitir.

Rayonda müalicəvi bitkilər də geniş yayılıb. Onlardan kəklikotu, gülxətimi, qəfli, sarıçiçək, çobanyastığı, boymadərən, boyxoş, andız, qaraçiyələk, qaraçörək, yarpız, daşyarpızı, dəvədabanı, solmazçiçəyi, yasəmən, çəmən, yolotu (qırxbuğum), cincilim qantəpər, şehdərən, dağ bənövşəsi, bənövşə, nərgiz, lilpar, unnuca, gicitkən, qaymaqçiçəyi və s. müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Rayonun gur çeşməli, şəffaf, müalicəvi əhəmiyyətli bulaqları - Yumurtalı bulaq, Narzan bulağı, Turşsu bulağı, Qiblə bulağı, Qayğı bulağı, Böyrək bulağı, İdris bulağı, Seyid bulağı turistlərin ən çox ziyarət etdiyi məkandır (1., s.64).

Astara. İran sərhədinin tam qarşı tərəfindəki şəhərdir. Meşə və dağlarla əhatə olunmuş Astara Azərbaycanın ən gözəl bölgələrindən biridir. Öz kafesi, restoranı və muzeyi var. Muzey yaxınlıqdakı arxeoloji tapıntılara həsr edilmişdir. 2000-dən çox yaşı olduğu iddia edilən insan fiqurları, heyvan heykəlləri, medalyon və daş işi kimi qalıqları görə bilərsiniz. Astara sərhədləri daxilində köhnə məscidlər, bürclər, hamamlar, ziyarətgahlar, dağ kəndləri kimi yerlər də var.

Qeyd etdiyimiz kimi, əsas marşrutlardan başqa Azərbaycan ərazisində əlavə marşrutlar da var ki, bunlardan da məlum səbəblərdən hələlik istənilən səviyyədə istifadə etmək mümkun deyil. Bu sırada Bakı-Naxçıvan marşrutunu xüsusi qeyd etmək lazımdır. Qədim Azərbaycan torpağı olan Naxçıvan təbii bulaqları və gölləri ilə ekoturizmin inkişafı üçün əlverişli imkanlara malikdir. Batabat gölü bu gün turistlərin ən çox diqqətini çəkən yerlərdəndir. Şahbuz şəhəri ərazisində, Naxçıvan şəhərindən 65 km məsafədə, dəniz səviyyəsindən 2445 m hündürlükdə olan bir yer həm də özünün şəfalı suyu ilə tanınır.

Təbiətin gözəl guşələrindən biri olan Batabat yaylağı gül-çiçəkli çəmənlikləri, təbii gölü, sadə və təmiz dağ havası, meşələri, Zorbulaq, Südlübulaq kimi bulaqları və «Narzan» tipli Batabat mineral suları ilə məşhurdur. Batabat yaylağının iqlimi ciyər, ürək, əsəb və s. xəstəliklərin müalicəsi üçün çox münasibdir. Ərazi dərman bitkiləri ilə zəngin olduğundan, həm də təmiz hava hesabına burada gələcəkdə turist bazası və fizioterapiya mərkəzinin yaranması üçün perspektiv var. Batabat yaylağında aparılan tədqiqatlar nəticəsində Mustye mədəniyyətinə, Tunc, İlk Dəmir dövrünə, orta əsrlərə aid abidələr, yaşayış məskənləri, qalalar, ibadətgahlar, qayaüstü rəsmlər, qoç, daş heykəlləri və s. aşkara çıxarılıb (4., s.97).

Daş kitabələr olan qədim Gəmiqaya rəsmləri Naxçıvanda turistləri cəlb edən başqa bir məkandır.

Naxçıvanın Duz dağı da müalicəvi məkan hesab olunur. Burada müasir tipli beşulduzlu hotel tikilib. Duz dağına MDB məkanından, hətta xarici ölkələrdən müalicə olunmaq üçün astma xəstələri gəlirlər.

Bakı .Azərbaycanın paytaxtı Bakı müasir görünüşü ilə sizi qarşılayacaq. Gecə rənglənən Alov Qüllələri şəhərə fərqli bir atmosfer qatır. Bir sənət bölgəsi olaraq Çağdaş İncəsənət Muzeyini nümunə göstərə bilərik. 900-dən çox əsəri ilə müasir mədəniyyətlə maraqlananlara xidmət göstərir. Teze Pazarı da müxtəlif qidaları tapa biləcəyiniz alış-veriş yerlərindən biridir.

İçərişəhər ."İçərişəhər" və "Qala" kimi də tanınan İçərişəhər UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Qorunan binalar arasında köhnə divarlı şəhərin bir hissəsi olan XII əsr Qız Qalası və XIII əsrdə tikilmiş Şirvanşahlar Sarayı yer alır İçərişəhərə yalnız memarlıq binaları üçün deyil, həm də ənənəvi Azərbaycan milli geyimlərini görmək üçün gələ bilərsiniz. Hədiyyə mağazalarında gözəl parçaları da görəcəksiniz.

Abşeron Milli Parkı .783 hektar ərazini əhatə edən Abşeron Milli Parkı vəhşi həyatı yaxından görmək üçün ən yaxşı yerdir. Ceyran, quş, çaqqal və porsuq kimi heyvanları yaxından görmək imkanınız var. Sentyabr ayından sonra gəlməyinizi tövsiyə edirik. (2., s.39).

## Nəticə

Azərbaycan turizmin qədim tarixi ənənələri ilə zəngin olan bir ölkədir. Bu gün Azərbaycan dünya mədəniyyətinin ən gözəl incilərini, tarixi arxeoloji abidələri, arxitektura nümunələrini, müxtəlif dini dünyagörüşləri, milli adət-ənənələri və mədəniyyətləri özündə birləşdirən unikal bir turizm ölkəsidir. İstər təbiəti, istər abidələri, istər mədəni irsi, istər insanları, istərsə də müasir istirahət və əyləncə kompleksləri ilə ölkəmiz qabaqcıl turizm ölkələrindən heç nə ilə geri qalmır.

Dağ və qış turizm növləri Azərbaycanda perspektivli sahələrdəndir. Belə ki, Azərbaycan Respublikasının dağlıq ərazilərində turizmdən istifadə imkanları mövcuddur. Ölkə ərazisində dağ və qış turizminin inkişafı istiqamətində atılmış məqsədyönlü addımlar nəticəsində dağların yamacları turizm məkanı kimi inkişaf etdirilmişdir. Belə ki, bu gün “Şahdağ” Turizm Mərkəzi QSC və “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi kimi istirahət zonaları məşhur istirahət mərkəzlərinə çevrilib. Həmçinin ölkəmiz zəngin flora və faunası ilə böyük ekoturizm potensialına malikdir. Çünki 11 iqlim tipindən 9-unun müşahidə olunduğu Azərbaycan ərazisi 4100-dən çox müxtəlif bitki çeşidinin vətənidir.

## References

1. Asanova I.M., Trofimova R.V., Semukhina E.V. Factors contributing to the development of domestic and foreign tourism in Russia Scientific-methodical electronic journal "Concept" (2015).
2. The flow of tourists to Azerbaijan "Voice" newspaper.
3. State program on tourism development in the Republic of Azerbaijan in 2014-2018
4. International tourism geography. CIS countries and the Baltic / comp. L.M.Gayduk-vich, S.A.Khomich, Ya.I. Anoshko. Minsk: Aversev, 2012.
5. Chen I.J. and Popovich, K. (2003) 'Understanding customer relationship management (CRM): people, process and technology', Business Process Management Journal, Vol. 9, no. 5, pp. 672-688.
6. Clark and others, (1994) The role of loyalty programs in behavioral and affective loyalty, December 2006 Journal of Consumer Marketing 23 (7): 387-396 DOI: 10.1108 / 07363760610712920, Project: Loyalty programs in retail. A efficacy study.

**Rəyçi: prof.R.Həsənov**

Göndərilib: 17.04.2021 Qəbul edilib: 18.04.2021